
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 208 (23.119)

31 oktyabr 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionu qəbul edib.

Görüşdə iqtisadiyyat, turizm, təhsil, o cümlədən peşə təhsili sahələrində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

* * *

Dövlətimizin başçısı oktyabrın 30-da Türkmənistan Respublikası Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevi qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderi qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 30 oktyabr tarixli sərəncamları ilə kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları da vardır.

**Mirzəyeva Familə Mirzə qızı**

3-cü dərəcəli "Əmək" ordeni ilə,

**Abbasov Xaliq Dilavər oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə,

**Həsənov Həzi Kərəm oğlu**
**Hüseynov Pamir Nəsurullah oğlu**

"Tərəqqi" medalı ilə,

**Həsənov Fikrət Əyyub oğlu**

"Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adı ilə təltif edilmişlər.

## Naxçıvan Qarnizonu qoşunlarının birgə təlimi keçirilmişdir





Oktyabrın 30-da Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi təlimi izləmişlər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə hazırlıq barədə raport vermişdir.

Sonra təlimin mövzusu, məqsədi və mərhələləri barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, təlimin keçirilməsində məqsəd Naxçıvan Qarnizonunun güc strukturlarının idarəetmə orqanlarının xüsusi əməliyyatların planlaşdırılmasında uzlaşmış fəaliyyətinə nail olmaqdan, birləşmə və hissələrin idarəetmə və əməliyyat heyətinin əməliyyatların planlaşdırılması, idarə edilməsi və təşkili üzrə bilik və bacarıqlarını təkmilləşdirməkdən,



eləcə də müdafiə zamanı düşmənin kəşfiyyat-diversiya orqanlarının aşkar, təcrid və məhv edilməsindən ibarətdir.

Ali Məclisin Sədri yeni hərbi təyinatlı cihazlara baxmışdır.

Məlumat verilmişdir ki, Silahlı Qüvvələrin Hərbi Akademiyası və Azərbaycan Milli Elmlər Akademiyasının birgə hazırladıqları "İldırım RP-10" radiopartladıcı və "Sərhəd Sipər Sistemi" yüksək texniki göstəricilərə malikdirlər. "İldırım RP-10" radiokanal sistemi mürəkkəb relyefi olan ərazidə 3500 metr məsafədə, birbaşa görüntülü ərazidə isə 5 min metr məsafədə döyüş tapşırığını yerinə yetirir. "Sərhəd Sipər Sistemi" isə 1 kilometr məsafədə mühəndis çəpərinə quraşdırılır və radiosiqnallar vasitəsilə xəbərdaredici manеələr zolağı yaradır. Dövlət sərhədinə hər hansı müdaxilə olduğu zaman sistem onun yerini müəyyənləşdirir və mərkəzə məlumat ötürür.

Ardı 2-ci səhifədə









Sonra komanda verilmiş və təlim başlamışdır.

Təlimdə Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı birləşmə və hissələrinin, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələrinin, ümumilikdə, mindən artıq şəxsi heyəti, 80-ə yaxın zirehli və avtomobil texnikası, 20-dən artıq hava hücumundan müdafiə vasitələri, 40-a yaxın artilleriya qurğusu, 10-dan artıq aviasiya texnikası və pilotsuz uçuş aparatları iştirak edib.



Təlimdə düşmənin genişmiqyaslı hücum əməliyyatının və diversiya-təxribat fəaliyyətlərinin qarşısının alınması üçün şərti olaraq müxtəlif döyüş tapşırıqları yerinə yetirilmişdir. Düşmən birinci eşelon birləşmələrinin güclü müqavimətinə rast gələrək hücumu dayandırmağa məcbur olmuşdur. Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı bölmələri Naxçıvan Qarnizonunun digər güc strukturlarının bölmələri ilə qarşılıqlı əlaqədə əks-zərbə endirmiş, düşmən müdafiəsinin yaxın dərinliyindəki dağ aşırımlarını, təminat və təxliyə yollarını tutmuş, mühüm obyektlərini məhv etmiş, döyüş texnikasını ələ keçirmişdir.

Düşmənin diversiya-təxribat qrupunun zərərsizləşdirilməsi məqsədi ilə fəaliyyətə başlayan Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlıları təxribatçıları zərərsizləşdirərək tam tərkibdə ələ keçirmişlər. Sərhədçilər dövlət sərhədinə basqın edən düşmənlə mübarizədə qarşıya qoyulmuş tapşırığı uğurla yerinə yetirmişlər. Xüsusi təyinatlı qrup isə düşmən kolonunu mina tələsinə salaraq döyüş texnikalarını qrupun atəşi ilə məhv etmiş, irəliləmə və geriçəkilmə yollarını bağlamışdır.

Düşmənin döyüş-nəqliyyat vertolyotlarından istifadə etməklə qoşunlarımızın müdafiə dərinliyinə hava desantı çıxarmaq cəhdinin qarşısı alınmış, Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsi düşmənin taktiki hava desantını mühasirəyə alaraq qısa müddətdə zərərsizləşdirmişdir. Hakim yüksəkliyin aşırımını müdafiə edən düşmənin canlı qüvvəsini məhv etmək üçün xüsusi təyinatlı qrup ərazinin relyefindən yararlanaraq düşmən mövqeyinə gizli şəkildə yaxınlaşmışdır. Xüsusi təyinatlı qrup sərrast atəşlərlə düşmənin canlı qüvvəsini məhv etmiş, müdafiə mövqeyini ələ keçirmiş və hakim yüksəklik istiqamətində digər qrupların fəaliyyətinə əlverişli şərait yaratmışdır. Dağ aşırımının digər yamacını ələ keçirmək tapşırığı almış xüsusi təyinatlı qrup təyin edilmiş rayona zirehli "SANDCAT" avtomobilləri ilə hərəkət etmişdir. Xüsusi təyinatlı qrup yüksəklikdə yerləşən düşmən mövqeyini ələ keçirməklə hakim yüksəkliyə hücum edən bölmələrin cinahlardan təhlükəsizliyinə və taktiki desantın hakim yüksəkliyə endirilməsinə şərait yaratmışdır.

Sərf edilmiş döyüş sursatlarının yenisi ilə təmin olunması, yaralıların təxliyə edilməsi, partlamayan və partlayış-təhlükəli mərmilərin tapılaraq zərərsizləşdirilməsi üçün Fövqəladə Hallar Nazirliyinin pirotexniki taqımı, kinoloqları və xilasediciləri qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirmişlər. Alpinistlər əlverişli istiqamətlərdə hakim yüksəkliyə qalxaraq bölmələrimizə müxtəlif döyüş sursatları çatdırmış, yaralanmış şəxsi heyət təxliyə olunmuşdur.

Təlimin gedişində düşmənin ehtiyatlarına aviasiya zərbəsi və hakim yüksəkliyə taktiki hava desantının endirilməsi göstərişi verilmişdir. "SU-25" təyyarələri hədəfi qısa müddətdə məhv etmiş, "Mİ-35M" vertolyot manqası düşmənin hakim yüksəklikdə yerləşən mövqelərinə atəş zərbələri endirmişdir. Vertolyotlardan endirilən taktiki hava desantı qrupları mühasirəyə aldıqları düşməni məhv etmişlər. "KORD" və "NSVT" pulemyotları ilə silahlandırılmış "KOBRA" və "SANDCAT" yüngül zirehli transportyorların heyətləri düşmənin atəş nöqtələrini susdurmuşlar. Snayper cütlükləri düşmənin döyüş sahəsində komanda heyətini, rabitəçiləri və əsas atəş vasitələrini aşkar edərək zərərsizləşdirmişlər. Xüsusi təyinatlı qruplar isə Azərbaycan istehsalı olan "ZƏFƏR" tapançalarından və digər atıcı silahlardan istifadə edərək düşmənin yaxın məsafələrdəki canlı qüvvəsini məhv etmişdir.

Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin qarşılıqlı əlaqədə birgə fəaliyyəti nəticəsində təlimdə qarşıya qoyulmuş məqsədlərə tam nail olunmuş, yaradılmış hədəf qrupları və maketləri məhv edilmişdir.



Xüsusi təyinatlı qruplar tərəfindən təlim ərazisindəki ən yüksək zirvədə üçrəngli bayrağımız qaldırılmış və işğaldan azad edilmiş Günnüt kəndi ilə bağlı "Günnüt Azərbaycan əsgərinin rəşadət əzmidir" şüarı nümayiş olunmuşdur.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra təlimdə iştirak edən şəxsi heyətlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hərbi təlimin hadisəsiz və uğurla başa çatması münasibətilə zabit, gizir və əsgərləri təbrik etmiş, təlimdə iştirak edən bütün şəxsi heyətə təşəkkürünü bildirərək demişdir: Bu il ölkəmizdə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının 27-ci ildönümü qeyd olundu. Hər bir dövlətin inkişafı üçün onun müstəqilliyi vacib şərtdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: ***"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması bundan da çətindir".***



Ali Məclisin Sədri demişdir: Ordusu olmayan dövlət müstəqil ola bilməz. Güclü ordu güclü dövlətçilik, sabitlik və inkişaf deməkdir. Azərbaycan xalqının heç bir zaman öz müstəqilliyindən geri çəkilməyəcəyini bəyan edən ümummilli liderimiz deyirdi ki, ***"Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır".*** Ulu öndərimizin ordu quruculuğu sahəsində başladığı işi uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev dövlət müstəqilliyimizin qarantı olan güclü ordu yaratmışdır. Bu gün ordumuzun maddi-texniki bazasının gücləndirilməsi və döyüş hazırlığının artırılması istiqamətində kompleks tədbirlər görülür.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının da müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Keçirilən hərbi təlim də göstərdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və hissələri istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadirdir. Ordumuz ona görə güclüdür ki, şəxsi heyətdə yüksək vətənpərvərlik var. Vətənpərvərlik sahib olduğumuz ən ali dəyərimizdir. Bu gün keçirilən hərbi təlimdən çıxarılan konkret nəticə də ondan ibarətdir ki, Silahlı Qüvvələrimizin hərbi qulluqçuları yüksək döyüş hazırlığı ilə yanaşı, həm də yüksək vətənpərvərliyə malikdirlər.

Ali Məclisin Sədri bir daha hərbi təlimin uğurla başa çatması münasibətilə təşkilatçılara, bütün şəxsi heyətə təşəkkür etmiş, çıxışını ölkə Prezidentinin fikirləri ilə tamamlamışdır: ***"Bizim ordumuz bizim qürurumuzdur".***

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə şəxsi heyətləri təbrik edərək demişdir: Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər sırasında Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinə xüsusi diqqət yetirir. Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər isə Silahlı Qüvvələrin buradakı ordu, birləşmə və hissələrində xidmətin və döyüş hazırlığının yüksək səviyyədə təşkilinə imkan verir. Bu gün Əlahiddə Ümumqoşun Ordusu ən müasir silah, texnika və digər avadanlıqlarla təmin edilmişdir. Keçirilən təlim bunu bir daha təsdiq etdi. Muxtar respublikadakı bütün güc strukturlarının xüsusi təyinatlıları tərəfindən qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirildi, şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirdi. Artıq

*Ardı 3-cü səhifədə*





düşmən Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun, eləcə də Silahlı Qüvvələrin muxtar respublikadakı digər birləşmə və hissələrinin yüksək döyüş hazırlığından, müasir silah və texnika təminatından qorxur və bunu etiraf edir.

Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək demişdir ki, təlimdə Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələri tam döyüşə hazır vəziyyətə gətirilmiş, bölmələr döyüş uzlaşması keçmiş və tapşırıqlar uğurla yerinə yetirilmişdir. Xüsusi təyinatlıların fəaliyyət ardıcıllığının vahid qaydada qəbul edilməsində, eləcə də radiotexniki, radioelektron, məlumat, xüsusi və qoşun kəşfiyyatlarının aparılmasında əməli təcrübə qazanılmışdır. Kərəm Mustafayev təlimdə iştirak edən şəxsi heyət adından minnətdarlıq etmiş, bundan sonra da bütün əmr və tapşırıqların uğurla yerinə yetiriləcəyini bildirmişdir.

Ali Məclisin Sədri təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırmışdır.

Gizir Bəhruz Məmmədov və zabit Vüqar Məlikov minnətdarlıq edərək demişlər ki, bu gün muxtar respublikada hərbi xidmət nümunəvi təşkil olunub. Hərbi hissələrin maddi-texniki təminatı, əsgərlərin məişət və xidməti şəraitinin yaxşılaşdırılması, eləcə də zabit-gizir ailələrinin yaşayışı üçün ardıcıl tədbirlər görülmüşdür. Yaradılan şərait və bu cür təlimlərin keçirilməsi mübarizə əzmimizi və döyüş ruhumuzu daha da artırır. Əmin edirik ki, düşmənin istənilən təxribatının qarşısını almağa tam hazırıq.

Şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan “Hamı bir nəfər, bir nəfər hamı üçün” şüarını səsləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov xüsusi təyinatlıların təlim mərkəzində yaradılan şəraitlə maraqlanmışdır.

Bildirilmişdir ki, təlim mərkəzində şəxsi heyətin yaşayışı, qidalanması və xidmətin aparılması üçün lazımi şərait vardır. Burada yataq yerləri, əşya və ərzaq anbarları, yeməkxana və məişət guşələri istifadəyə verilmişdir. Görülən işlər istənilən hava şəraitində təlimlərin uğurla həyata keçirilməsinə imkan verir.

Ali Məclisin Sədri Naxçıvan Qarnizonu qoşunlarının birgə taktiki-xüsusi təlimlərinin bundan sonra da davam etdirilməsi və qarşılıqlı fəaliyyətin təşkili barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin oktyabr ayında bir sıra qərarlar qəbul etmişdir.

Nazirlər Kabinetinin 2018-ci il 2 oktyabr tarixli qərarları ilə “Naxçıvan Muxtar Respublikasında mobil cihazların qeydiyyatının aparılması Qaydası”nda və 5 oktyabr tarixli qərarları ilə “Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişindaşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası”nda, “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nda, “Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları”nda və “Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları”nda dəyişikliklər edilmişdir. Sonuncu Qaydalarda edilmiş dəyişikliklərə görə praktik psixoloq vəzifəsi üzrə müsabiqədə iştirak etmək üçün zəruri olan 1 ildən yuxarı pedaqoji staj məhdudiyyəti aradan qaldırılmış, müəllim köməkçisi, tərbiyəçi, defektoloq, loqoped, praktik psixoloq, məktəb uşaq birliyi təşkilatı rəhbəri, laborant, kitabxana müdiri, kitabxanaçı vəzifələrinə, habelə musiqi, texnologiya, təsviri incəsənət, fiziki tərbiyə fənləri üzrə işə qəbul üçün keçid balı 40 bal müəyyən edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli qərarları ilə “İdman mərc oyunlarının təşkili və keçirilməsi Qaydaları”nda dəyişikliklər edilmiş, “Naxçıvan Muxtar Respublikasında arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə görə) subsidiya verilməsi Qaydası” təsdiq edilmişdir. Müvafiq Qaydaya əsasən 2018-ci il də daxil olmaqla, 5 il müddətində arıçılara saxladıqları hər arı ailəsinə (pətəyə görə) ildə 10 manat məbləğində subsidiya verilir. Həmçinin Nazirlər Kabinetinin 2018-ci il 17 oktyabr tarixli qərarları ilə “Naxçıvan Muxtar Respublikası ərazisində iqtisadi fəaliyyət sahələri üzrə 2019-cu il üçün əmək miqrasiyası kvotası” təsdiq edilmiş, “Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi” publik hüquqi şəxsin göstərdiyi tibbi xidmətlərin siyahısı və tarifləri” yeni redaksiyada verilmiş və “Elektron xidmət növlərinin Siyahısı”nda dəyişikliklər edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2018-ci il 26 oktyabr tarixli qərarları ilə “Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı” təsdiq edilmiş və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun və qanunvericiliyə uyğun olaraq tətbiq edilən cərimələrdən daxil olan vəsaitlərin həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən və ya təşkil edən dövlət orqanlarının, habelə dövlət notariat kontorlarının xəzinə hesabına köçürülməsi, istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 3 noyabr tarixli 113 nömrəli qərarında dəyişikliklər edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar. nakhchivan.az*) tanış olmaq mümkündür.

## Gənc polis əməkdaşlarının andiçmə mərasimi keçirilib



*Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində 3 aylıq ilkin hazırlıq kursu keçmiş gənc polis əməkdaşlarının andiçmə mərasimi təşkil olunub.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni oxunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsinin rəisi, polis polkovnik-leytenantı Rəşad Seyidov çıxış edərək bildirib ki, muxtar respublikanın daxili işlər orqanlarında kadr potensialının formalaşdırılmasına, əməkdaşların qanunçuluğa, xidməti və icra intizamına, etik davranış qaydalarına ciddi əməl etmələrinə, anda sədaqət ruhunda tərbiyə olunmalarına, həmçinin nəzəri-praktik, mənəvi-psixoloji hazırlıqlarının təmin edilməsinə xüsusi diqqət yetirilir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi kadr hazırlığı işində mühüm əhəmiyyətə malikdir. Hazırda Orta İxtisas Polis Məktəbinin inzibati bina kompleksinin tikilməsi, əməkdaşların peşə hazırlığının yüksəldilməsi üçün dərs proqramlarının və təhsil müddətinin müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi və andiçmə mərasiminin dövlətçilik tariximizin təbliği baxımından mühüm əhəmiyyət kəsb edən Dövlət Bayrağı Muzeyində keçirilməsi göstərilən yüksək diqqətin bariz nümunəsidir.

Qeyd olunub ki, ilkin hazırlıq kursunu müvəffəqiyyətlə başa vurmuş 28 gənc polis əməkdaşı bütün xidməti dövrü anda sadiq qalmalı, peşəkarlığını artırmaq üçün daim öz üzərlərində çalışmalı, ictimai asayişin və təhlükəsizliyin təmin olunması istiqamətində vəzifə borcunu ləyaqətlə yerinə yetirməlidirlər.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri Yusif Həsənov çıxış edərək gənc əməkdaşları təbrik edib.

Sonra andiçmə mərasimi başlayıb, gənc əməkdaşlar təntənəli şəkildə polis andı içiblər.

Tədbirdə polis baş serjantı Sami Səfərov çıxış edərək gənc polis əməkdaşları adından yaradılan şəraitə və göstərilən etimada görə dövlətimizə minnətdarlıq edib, Vətənə, xalqa, dövlətə sədaqət ruhunda xidmət edəcəklərini bildirib.

Sonda Dövlət Bayrağı Muzeyində nümayiş etdirilən eksponatlara baxış olub.

✍ **Nail ƏSGƏROV**

## AMEA Naxçıvan Bölməsində görüş



*AMEA Naxçıvan Bölməsində İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Vüqar Bayramovla görüş keçirilib.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək ölkə iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb. Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın çoxşaxəli inkişafı üçün ardıcıl və məqsədyönlü tədbirləri diqqətə çatdıran akademik muxtar respublikanın son illər iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlardan, böyük bir yol keçərək müasir və inkişaf etmiş bir diyara çevrilməsindən danışıb. Diqqətə çatdırılıb ki, son illər dünyada davam edən maliyyə böhranlarına baxmayaraq, Naxçıvanda ümumi daxili məhsul istehsalının həcmi artıb, yeni iş yerləri yaradılıb, sosial infrastruktur təminatının həcmi və keyfiyyəti yaxşılaşıb.

Tədbirdə Vüqar Bayramov çıxış edərək Naxçıvanla bağlı təəssüratlarını bölüşüb. Qeyd olunub ki, bu gün Naxçıvanın öz daxili iqtisadi inkişafının nəticəsi ölkə iqtisadiyyatına öz müsbət təsirini göstərir.

İqtisadçı ekspert “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivliyi üzrə Strateji Yol Xəritəsi”nin icrası ilə bağlı nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsindən də söz açıb. Çıxışda ölkənin alim və mütəxəssislərinin elmi nailiyyətlərindən bəhs olunub. Vüqar Bayramov AMEA Naxçıvan Bölməsində elmi inkişaf istiqamətində görülən işləri yüksək qiymətləndirib.

Sonda qonaq bölmə əməkdaşlarının suallarını cavablandırıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Müsabiqənin qalibləri mükafatlandırılıb



*Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar keçirilən “Gənclər Paytaxtının ən yaxşı tələbə-gənclər təşkilatı” müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi olub.*

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov çıxış edərək keçirilən tədbirin muxtar respublikanın Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunduğunu qeyd edib. Müsabiqə barədə məlumat verən nazirlik əməkdaşı bildirib ki, muxtar respublikada fəaliyyət göstərən tələbə-gənclər təşkilatları ilə işin canlandırılması, tələbə-gənclər təşkilatları sədrlərinin fəallığının artırılmasına stimul vermək məqsədilə həyata keçirilən “Gənclər Paytaxtının ən yaxşı tələbə-gənclər təşkilatı” müsabiqəsi dörd yarışmadan ibarətdir.

Müsabiqənin “Təbiətsevər” yarışmasında ilk üç pillədə müvafiq olaraq Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Dövlət Texniki Kollecinin komandaları qərarlaşıblar.

“Azərbaycan gəncliyinə doğan Günəş” mövzusunda məqalə yarışmasının qalibi isə Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Fatimə Həsənova olub. Naxçıvan Dövlət Universitetinin tələbəsi Gülay Tahirli və Naxçıvan Musiqi Kollecinin tələbəsi Gülzar Heydərli ikinci və üçüncü yerlərə layiq görülüblər.

“Vətənpərvər” qısametrajlı film yarışmasında Naxçıvan Dövlət Texniki Kollecinin komandasının çəkdiyi film qalib adını qazanıb. Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun komandaları ikinci və üçüncü olublar.

“On/off” video yarışmasının qalibi isə Naxçıvan Dövlət Universitetinin tələbəsi Kənan Hacızadə olub. Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Elcan İbrahimov və Naxçıvan Tibb Kollecinin tələbəsi Aytac Mərdanlının da hazırladıqları videolar mükafatçılar sırasına düşüb.

Mükafatlandırma mərasimində qalib komandaların hazırladıqları videolar nümayiş etdirilib.

Sonra qalib komandalar və onların üzvləri mükafatlandırılıblar.

Tədbir konsert proqramı ilə başa çatıb.

✍ **Ceyhun MƏMMƏDOV**

***Fotolar yaşananları gözlər önünə sərməklə dünənlə bu günün müqayisəsini aparmaq üçün bizə geniş imkanlar yaradır. Bu mənada, fotoqrafiya sənətini tarixin güzgüsü də adlandırmaq olar. Bacarıqlı fotoqrafın illər öncə çəkdiyi şəkil bu gün keçmişə işıq salmaqla tarixi öyrənməyə, adət-ənənələri, milli-mənəvi dəyərləri yaşatmağa xidmət edir. Məhz bu nöqteyi-nəzərdən fotoqrafiya olduqca əhəmiyyətli sahə kimi diqqəti çəkir. Bu sənətin tarixi böyük olmasa da, foto işi günümüzdə çox populyarlıq qazanıb.***

# Tarixi yaşadan sənət



Fotoqrafiyanın tarixinə qısaca nəzər salaraq qeyd edək ki, dünyada ilk fotoqrafiya ixtiraçısı fransız rəssamı Jozef Nyeps olub. Bu işi həmkarı Lui Jak Dager davam etdirib. Mənbələrdə fotoqrafiyanın yaranma tarixi 1839-cu il yanvarın 7-si göstərilir. Həmin gün Lui Dager dayanıqlı insan fotorəsmini çəkməyi bacarıb. O, 1839-cu ildə Parisdə Fransa Elmlər Akademiyası üzvlərinin iştirakı ilə keçirilən yığıncaqda fotoqrafik əkslərin möhkəmləndirilməsi üsulunu tapdığını elan edib. Müasir fotodan fərqli olaraq ilk foto neqativ deyil, pozitiv idi. Onu isə yalnız düz günəş şüaları altında görmək olurdu. Həmçinin foto pozitivdən köçürmə (surətçıxarma) mümkün deyildi. İlk rəngli fotoşəkil isə 1861-ci ildə nümayiş olunub. İllər keçdikcə bütün sahələrdə gedən inkişaf və tərəqqi fotoqrafiya sənətinin də təkmilləşməsinə imkan verib.

Doğma Naxçıvanımızda fotoqrafiya sənətinin yaranma tarixi ötən əsrin 20-ci illərinin ortalarına təsadüf edir. Ötən dövr ərzində bu sənət böyük inkişaf yolu keçib, qədim diyarda bir sıra tanınmış fotoqraflar yaşayıb-yaradıblar. Onlardan biri də ömrünün 50 ilini bu sənətə həsr edən Əhməd Seyidovla çalışdığı fotostudiyada görüşdük, həmsöhbət olduq. Əhməd Seyidov dedi:

– Fotoqrafiya sənətinə uşaqlıq illərindən böyük maraq göstərmişəm, bu işlə məşğul olanlara həsəd aparmışam. 22 yaşımda bu sənətin dalınca getdim. O zamanlar foto işi ilə məşğul olmaq çox çətin və məsuliyyətli idi. Texnologiyalar bəsit olduğundan bu iş insandan böyük zəhmət, əsl sənətkarlıq tələb edirdi. Bəzən bir şəklin effektli alınması üçün saatlarla vaxt sərf etməli olurdum. Lazım gələn materiallar da çətin tapılırdı. İllər ötdü, yeni texnologiyalar ixtira olundu, foto işi də müasirləşdi. Ancaq unutmayaq ki, şəklin effektli, gözoxşayan olması üçün, sadəcə, müasir fotoaparat kifayət etmir, əsl fotoqraf çəkdiyi fotolara hiss və emosiyalarını qatmalı, ətrafda gördüklərini dolğun şəkildə fotoobyektivin yaddaşına köçürməyi bacarmalıdır. Bu isə, təbii ki, hər kəsə nəsib olmayan istedaddır. Peşəkar fotoqraf olmaq istəyən daim öz üzərində işləməlidir. Uzun müddət foto işi ilə məşğul olmağıma baxmayaraq, hər gün yeni bir incəlik öyrənirəm. Doğma Naxçıvanımızın hər guşəsini qarış-qarış gəzirəm. Qədim torpaq hər fəsildə bir başqa gözəlliyə qərq olur. Bu ecazkarlıq biz fotoqraflara böyük əhval-ruhiyyə bəxş edir, çəkilən şəklin daha baxımlı, könüləyan olmasına şərait yaradır. Təcrübəmdən deyim ki, şəklin effektli alınmasında studiyada işıqlandırma, açıq havada isə gün işığı mühüm rol oynayır. Əgər insan fotosu çəkirsənsə, mütləq arxa fona da fikir verməlisən. Bu mənada, yaşıllıq ərazilərdə, tarixi məkanlarda çəkilən şəkillər daha effektli, daha cəlbedici alınır.

Əhməd Seyidovun sözlərinə görə, əvvəllər ailəliklə xatirə şəkli çəkdirmək üçün fotoqraflara tez-tez üz tutardılar. Lakin müasir dövrdə smartfon telefonların meydana gəlməsi ilə bu istək xeyli azalıb. İndi həvəskar fotoqraflar peşəkar fotoaparat olmadan belə, şəkil çəkə bilirlər. Lakin bu da danılmaz həqiqətdir ki, professional fotoqraf işi ilk baxışdan seçilir. Müasir dövrün üstün cəhətlərindən biri internet və sosial şəbəkələrə geniş çıxış imkanlarının olmasıdır. Əgər əvvəllər doğma yurdumuzla bağlı çəkilən fotolar rəfləri bəzəyirdisə, indi gənclər bu şəkilləri bütün dünyaya asanlıqla nümayiş etdirə bilirlər.

Təqdirəlayiq haldır ki, bu gün fotoqrafiya sənətinin inkişaf etdirilməsinə dövlət səviyyəsində böyük önəm verilir. Gənc fotoqraflar nəslinin yetişməsi, istedadlı fotoqrafların üzə çıxarılması üçün mütəmadi olaraq sərgilər, fotomüsabiqələr təşkil olunur. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Rəssamlar Birliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi gənclərin bu sənətə marağını artırmaq üçün məqsədyönlü işlər görürlər. "Naxçıvanı tanıyaq", "Naxçıvanı tanıdaq", "Naxçıvanın turizm potensialı", "Ətraf mühit və biz", "Ailə dəyərlərimiz film və fotolarda" mövzularında, eləcə də əlamətdar günlərlə bağlı təşkil olunan fotomüsabiqə və sərgilər doğma diyarımızın tanıdılması baxımından müstəsna əhəmiyyətə malikdir. Naxçıvanlı fotoqrafların ölkəmizin digər bölgələrində təşkil olunan sərgilərdə də iştirakları təmin olunur, bu da fotoqrafiya sənəti ilə məşğul olan gənclərə böyük stimul verir.

Cari ildə də gənc fotoqrafların fəallığının təmin etmək məqsədilə bir neçə fotomüsabiqə və sərgi keçirilib. "Naxçıvan ölkəmizin Gənclər Paytaxtıdır" adlı fotomüsabiqənin təşkil edilməsində məqsəd qədim diyarın mədəniyyətinin, tarixi abidələrinin, turizm imkanlarının, təbiət mənzərələrinin, müasir inkişafının, adət-ənənələrinin təbliğində gənclərin fəallığını təmin etməkdən ibarət olub.

Cari ilin may ayının 22-də Bakı şəhərindəki "Gallery-1969"da tanınmış naxçıvanlı gənc fotoqraf Hüseyn Bağırovun "My Nakhchivan" ("Mənim Naxçıvanım") adlı fotosərgisi keçirilib. Sərgidə muxtar respublikamızın dününü, bu gününü əks etdirən fotolar paytaxt sakinləri və qonaqlar tərəfindən maraqla izlənilib. Həmin sərgi Naxçıvan şəhərində İslam Mədəniyyətinin Paytaxtı ilə bağlı keçirilən açılış tədbirində də nümayiş etdirilib. Sərgi İslam ölkələrinin nümayəndələri tərəfindən yüksək dəyərləndirilib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində çalışan rəssam-fotoqrafın səmərəli fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb. Burada çəkilən fotoların kataloqlaşdırılması, afişaların hazırlanması işləri həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində fotoqraf kursları da təşkil olunur. Bu da hər hansı idarə və təşkilatda çalışan gənc fotoqrafın bu sənətin sirlərinə daha dərindən yiyələnməsinə böyük imkanlar açır.

Bu gün doğma diyarımızın tarixi keçmişi, zəngin mədəniyyəti, milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz çəkilən fotolarda yaşayır. Bütün bunlar isə, təbii ki, dövlətimizin bu sənətin inkişafına göstərdiyi qayğı nəticəsində mümkün olur.

✍ **Nail ƏSGƏROV**

## Yurdumuzun nemətləri

# Ana təbiətin tikanlı, faydalı gözəli – həmərsin



***Gözəl təbiəti olan Naxçıvan torpağı dərman bitkiləri ilə zəngin bir diyar kimi də tanınıb. Belə dərman bitkilərindən biri də həmərsindir. Bu bitkinin səciyyəvi xüsusiyyətləri və əhəmiyyəti haqqında geniş məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Əsgər Həsənovla həmsöhbət olduq.***

Əsgər müəllim bildirdi ki, bu bitki gülçiçəklilər fəsiləsinə aiddir. Qafqazda 56, Azərbaycanda isə 49 növü yayılıb. Hündürlüyü 2,5-5 metrə çatan kolun bir kökündən bir neçə tikanlı gövdə çıxır. Gövdəsi tikansız olan növləri də vardır. Çiçəkləri qalxanvarı və ya süpürgəvarı qrupda və bəzən də budaqlarda tək-tək yerləşir. Yarpaqları növbəli düzülüşlü olmaqla ellipsvarıdır. Yarpağının kənarları mişarvarı çıxıntılarla əhatə olunub. Yarpaqlar tünd-yaşıl və ya açıq-yaşıl, çiçəkləri isə solğun çəhrayı rəngdədir. Çiçəklər görünüşcə qədəh formasındadır. Meyvəsi 2,5-5 santimetr uzunluğunda, ovalşəkilli olmaqla bir qədər dəyirmidir. Bitki may-iyun aylarında çiçəkləyir, avqust-sentyabr aylarında yetişməyə başlayır, yetişmiş meyvəsi al-qırmızı rəngdə olur. Kök sistemi güclü şaxələnərək torpağın nisbi rütubətindən asanlıqla qidalana bilir.

Müsahibim həmərsinin bio-morfoloji xüsusiyyətləri haqqında danışaraq qeyd etdi ki, bu bitki, əsasən, çay və göl kənarlarında, seyrək meşə talalarında, təpə və dağ yamaclarında qumlu, daşlı düzənliklərdə dəniz səviyyəsindən 1400 metr yüksəkliyə kimi olan sahələrdə bitir.

Həmərsinin ən qiymətli növləri Şahbuz rayonunun Batabat yaylağında, Biçənək, Külüs, Kolanı, Ordubad rayonunun Vənənd, Kilit, Nüsnüs, Əndəmic, Sədərək rayonunun Qaraağac, Sədərək, Şərur rayonunun Xanlıqlar, Çərçiboğan, Maxta, Kərimbəyli və Arbatan kəndlərinin ərazilərində yayılıb. Kök və toxumla çoxala bilən bitkinin ən əlverişli çoxaltma üsulu kök vasitəsilə aparılan artırma hesab olunur. Muxtar respublikamızın əksər yerlərində əlverişsiz mühitə çox asanlıqla uyğunlaşan bitkinin yabanı formasından həyətlərin çəpərə alınmasında geniş istifadə edilir. Yaxşı məhsul verən hündür kolların hər birindən orta hesabla 12-25 kiloqram meyvə tədarük etmək mümkündür. Çox barverən kolların budaqları meyvələrin yetişmə fazasında əyilib yerə yaxınlaşır. Budaqları və gövdəsi son dərəcə elastik olduğundan zədələnməyə qarşı müqavimətlidir. Zərərverici və xəstəliklərə, eləcə də şaxtaya dözümlüdür. Kolları budamaqla cavanlaşdırmaq qısa müddət ərzində mümkündür. Həmərsindən həm ərzaq, həm kulinariyada ədviyyat, həm də səhiyyədə müalicəvi vasitə kimi çox geniş istifadə olunur.

Əsgər Həsənovun sözlərinə görə, həmərsinin kökündə, gövdə və yarpağında aşı maddəsi, meyvəsində şəkər, pektin, pentazon, aşı və rəngləyici maddə, müxtəlif vitaminlər, efir yağı, yetişməmiş meyvəsində isə askorbin turşusu vardır. Meyvənin həddindən artıq yetişməsi turşuluğun azalmasına səbəb olur. Onun meyvəsində C vitamininin toplanması meyvənin yetişmə dərəcəsindən asılı olaraq dəyişir. Yüksək miqdarda C vitamini almaq üçün onu sütül vaxtı, yəni tam yetişmədən 10-15 gün əvvəl yığmaq daha əlverişlidir. Tükcüklü həmərsin növünün meyvəsi C vitamini və efir yağı ilə daha çox zəngindir. Tərkibindəki C vitamini aktivliyinə görə qarğıdalıdan 10-20, sitrus meyvələrindən 35-40, almadan 100-dəfə artıqdır. Mədəni gül sortlarının alınmasında calaqaltı kimi istifadə olunur.

Həmərsindən alınan dərman preparatlarından qan dövranının yaxşılaşdırılmasında, böyrək, mədə, dəri xəstəlikləri və yaraların müalicəsində istifadə olunur. Ondan mürəbbə, vitaminli içki, kompot, kisel və sair hazırlanır.

Əsgər müəllim onu da əlavə etdi ki, həmərsin meyvəsi kasa yarpağı ilə birlikdə qurudulur. Meyvənin tərkibindəki dəyərli maddə və vitaminləri maksimum saxlamaq üçün dərildikdən dərhal sonra qurudulmalıdır. Meyvələr əvvəlcə digər qarışıqlardan və xarab meyvələrdən təmizlənir. Sonra soyuq suda yuyulur. Meyvə təbii və süni olaraq qurudula bilər. Yaxşı havada, günəşli gündə, örtülü yerdə (çardaqda) qurutma müsbət nəticə verir. Bu üsulla qurutma 30 gün davam edir. Onun meyvəsi xüsusi quruducu qurğularda isə 70-80 dərəcə müsbət temperaturda tez-tez qarışdırmaqla qurudula bilər. Qurudulmuş meyvənin nəmliyi 15 faizdən artıq olmalı, quru, təmiz və sərin yerdə saxlanılmalıdır.

Həmərsinin meyvəsindən, çiçəyindən dəmlənmiş çay immuniteti gücləndirir, iltihab, soyuqdəymə proseslərinin qarşısını alır, sinir sistemini sakitləşdirir, böyrəklərdə və öd kisəsində daşların əmələgəlmə riskini azaldır, qan təzyiqini aşağı salır, maddələr mübadiləsini normallaşdırır, ürək-damar xəstəlikləri üçün olduqca faydalıdır. Digər faydalı bitkilər kimi, həmərsindən də qədərində istifadə etmək lazımdır. Xüsusilə də hər hansı xroniki xəstəlikləri olan insanlar bu bitkidən həkim məsləhətindən sonra istifadə etməlidirlər.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Seminar-müşavirə keçirilib

Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə keçirilən növbəti seminar-müşavirədə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin əməkdaşları Elxan Novruzov və Natiq Həsənov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, muxtar respublikamızda avtomobil nəqliyyatı ilə sərnişindaşımalarını yerinə yetirən sürücülərin intizam qaydalarına əməl etmələri diqqətdə saxlanılır. Şəhərdaxili nəqliyyatda sürücülərin ayıq-sayıq fəaliyyət göstərmələri və avtomobilləri təmiz saxlamaları üçün mütəmadi olaraq yoxlamalar həyata keçirilir, problemlər dərhal aradan qaldırılır. Sərnişindaşıma xidmətinin təhlükəsiz şəkildə göstərilməsi, vətəndaşların mənzilbaşına rahat şəkildə çatdırılması üçün avtobuslar xəttə çıxmazdan əvvəl sürücülər həkim müayinəsindən keçirilir.

Qeyd olunub ki, idarədə təmir briqadası yaradılıb, qarşıya çıxacaq hər hansı nasazlığı vaxtında aradan qaldırmaq üçün təmir sexləri hazır vəziyyətə gətirilib. Cari il sentyabr və oktyabr aylarında muxtar respublikada sərnişindaşıma fəaliyyəti göstərən avtobus və mikroavtobusların, taksilərin texniki müayinəsi keçirilib. Fövqəladə Hallar və Daxili İşlər nazirlikləri nümayəndələrinin birgə iştirakı ilə keçirilən texniki müayinə zamanı avtonəqliyyat vasitələrinin ayrı-ayrı hissələri yoxlanılıb, bu istiqamətdə lazımi tədbirlər görülüb.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, seminar-müşavirədə əhaliyə sərnişindaşıma xidməti göstərən 60 sürücü iştirak edib.

**Xəbərlər şöbəsi**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual: Torpaq sahəsindən təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi məsuliyyətə səbəb olabilərmi?***

***Cavab:*** Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinə əsasən torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsinə görə fiziki şəxslər üç yüz, vəzifəli şəxslər altı yüz, hüquqi şəxslər isə üç min manat məbləğində cərimə edilir. Nəzərdə tutulmuş xətanın kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədilməsinə görə isə fiziki şəxslər beş yüz manat, vəzifəli şəxslər min manat, hüquqi şəxslər isə beş min manat məbləğində cərimə edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 800